**Xarici ticarət əlaqələri haqqında**

2024-cü ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 172 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 120 ölkəyə məhsul ixrac olunmuş, 162 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar-oktyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 38412,7 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 21776,3 milyon dollarını və ya 56,7 faizini ölkədən ixrac olunmuş məhsulların, 16636,4 milyon dollarını (43,3 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 5139,9 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2023-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 100,0 faiz təşkil etmiş, real ifadədə isə 3,9 faiz, o cümlədən idxal 0,4 faiz, ixrac 5,9 faiz azalmışdır.

2024-cü ilin yanvar-oktyabr aylarında qeyri neft-qaz məhsullarının ixracı 2807,5 milyon dollar təşkil etmiş və 2023-cü ilin yanvar-oktyabr aylarına nisbətən faktiki qiymətlərlə 3,5 faiz artmış, real ifadədə isə 9,1 faiz azalmışdır.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən ölkənin xarici ticarət dövriyyəsinin 24,3 faizi İtaliya, 13,1 faizi Türkiyə, 10,0 faizi Rusiya, 7,7 faizi Çin, 3,3 faizi Almaniya, hər biri 2,6 faiz olmaqla ABŞ və Avstraliya, 2,4 faizi Çexiya, 2,3 faizi Hindistan, 2,2 faizi Xorvatiya, 1,9 faizi İsrail, 1,7 faizi Gürcüstan, hər biri 1,6 faiz olmaqla Portuqaliya və Birləşmiş Krallıq, 1,5 faizi Bolqarıstan, hər biri 1,3 faiz olmaqla İran və Yunanıstan, 1,1 faizi Rumıniya, hər biri 1,0 faiz olmaqla Belarus, Qazaxıstan, İsveçrə və Ukrayna, hər biri 0,9 faiz olmaqla Yaponiya və Türkmənistan, 11,7 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.




İxracın 40,1 faizini İtaliyaya, 14,2 faizini Türkiyəyə, 4,3 faizini Rusiyaya, 4,0 faizini Çexiyaya, 3,7 faizini Xorvatiyaya, hər biri 3,2 faiz olmaqla Hindistan və İsrailə, 2,8 faizini Portuqaliyaya, 2,7 faizini Almaniyaya, 2,5 faizini Gürcüstana, 2,4 faizini Bolqarıstana, 2,1 faizini Yunanıstana, 1,8 faizini Birləşmiş Krallığa, 1,7 faizini Rumıniyaya, 1,2 faizini Tunisə, 1,0 faizini Tailanda, hər biri 0,7 faiz olmaqla İsveçrə, Serbiya, İspaniya və İndoneziyaya, hər biri 0,6 faiz olmaqla Ukrayna və Niderlanda, 5,1 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (34,1 faiz), Türkiyəyə (17,0 faiz), Gürcüstana (8,3 faiz), İsveçrəyə (6,0 faiz), ABŞ-a (4,2 faiz), Qazaxıstana (3,8 faiz), Ukraynaya (3,2 faiz), Türkmənistana (2,5 faiz), Omana (2,3 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (1,6 faiz), Almaniyaya (1,5 faiz), Belarusa (1,4 faiz), Niderlanda (1,2 faiz), İtaliyaya (1,2 faiz), Rumıniyaya (1,1 faiz), Özbəkistana (1,1 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,0 faizi Çin, 17,9 faizi Rusiya, 11,5 faizi Türkiyə, 6,2 faizi Avstraliya, 5,5 faizi ABŞ, 4,1 faizi Almaniya, 3,1 faizi İran, 2,7 faizi İtaliya, 2,2 faizi Belarus, 2,1 faizi Yaponiya, 2,0 faizi Koreya, 1,7 faizi Qazaxıstan, 1,6 faizi Türkmənistan, hər biri 1,4 faiz olmaqla Ukrayna və İsveçrə, 1,3 faizi Birləşmiş Krallıq, 1,2 faizi Fransa, 1,1 faizi Hindistan, hər biri 1,0 faiz olmaqla Özbəkistan və Kanada, 0,9 faizi Braziliya, 0,8 faizi İspaniya, 11,3 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

2024-cü ilin yanvar-oktyabr aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 0,5 faiz, təzə tərəvəz – 2,4 faiz, şəkər – 62,9 faiz, tütün – 3,5 dəfə, meyvə və tərəvəz konservləri – 13,4 faiz, bitki yağları – 61,7 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 68,9 faiz, çay – 6,2 faiz, pambıq lifi – 98,1 faiz, mineral gübrələr – 76,3 faiz, pambıq ipliyi – 4,6 faiz, bentonit gili – 28,9 faiz artmış, kartof ixracı isə 32,0 faiz, meyvə və tərəvəz şirələri – 2,1 faiz, təbii üzüm şərabları və üzüm suslosu – 42,3 faiz, polipropilen – 21,4 faiz, polietilen – 17,0 faiz, elektrik enerjisi – 49,2 faiz, emal olunmamış alüminium – 16,8 faiz, sement klinkerləri – 1,2 faiz, qara metallardan çubuqlar – 0,7 faiz, qara metallardan borular – 8,6 faiz azalmışdır.

2023-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə 2024-cü ilin yanvar-oktyabr aylarında bitki yağları idxalı 15,1 faiz, kərə yağı, digər süd yağları və pastaları – 85,3 faiz, təzə meyvə – 25,8 faiz, unlu qənnadı məmulatları – 12,3 faiz, şokolad və şokolad məhsulları – 14,5 faiz, çay – 9,2 faiz, quş əti və onun əlavə məhsulları – 38,3 faiz, mal əti – 56,5 faiz, təzə tərəvəz – 59,7 faiz, hesablama maşınları, blok və qurğuları – 25,1 faiz, yük avtomobilləri – 22,3 faiz, mebellər – 44,3 faiz, sintetik yuyucu vasitələr – 7,1 faiz, məişət kondisionerləri – 42,7 faiz, qara metallardan çubuqlar – 57,9 faiz, mineral gübrələr – 17,5 faiz, paltaryuyan maşınlar – 3,5 faiz, avtobuslar – 3,2 dəfə, polipropilen – 22,8 faiz, sement – 7,2 faiz artmış, xam şəkər idxalı isə 2,0 faiz, kartof – 21,7 faiz, siqaretlər – 71,7 faiz, minik avtomobilləri – 10,8 faiz, dərman vasitələri – 26,5 faiz, polad prokatı – 9,0 faiz, qara metallardan borular – 7,5 faiz, rezin şinlər – 8,1 faiz, polietilen – 8,3 faiz, qara metallardan künclüklər – 7,5 faiz, məişət soyuducuları – 7,0 faiz azalmışdır.

***Əlaqə telefonu: 377 10 70 (22-60)***